**AUDİT 2023, 2 (40), səh. 59-66.**
**AUDIT 2023, 2 (40), pp. 59-66.**
**АУДИТ 2023, 2 (40), стр. 59-66.**

**DOI: 10.59610/bbu2.2023.2.6**

*Süleymanov Məhəmməd Alı oğlu,*
*doktorant,*
*Milli Aviasiya Akademiyası*
*E-mail: mehemmed_suleymanov05@mail.ru*
*© Süleymanov M.A., 2023*

**UOT: 656**

# AZƏRBAYCANIN NƏQLİYYAT SİSTEMİNİN İNVESTİSİYALI İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ

## X Ü L A S Ə

**Tədqiqatın məqsədi** – Azərbaycanın nəqliyyat sisteminin innovasiyalı və investisiyalı inkişafı istiqamətlərinin və onun inkişaf problemlərinin müəyyən edilməsidir.

**Tədqiqatın metodologiyası** – işin hazırlanmasında analiz və sintez, həmçinin induksiya ilə deduksiya metodlarından istifadə olunmuşdur. Belə ki, analiz metodu vasitəsilə mövzu bütöv şəkildə götürülmüş, sonra isə fəsillərə bölünərək ayrı-ayrılıqda təhlil edilmişdir. Daha sonra sintez metodu ilə bu fəsillər iqtisadi sistemdə cəmləşdirilmişdir. İnduksiya metodu vasitəsilə tədqiqat işi barəsində iqtisadi faktlar əldə edilmiş, sistemləşdirilmiş və araşdırılmışdır. Daha sonra isə deduksiya metodunun istifadəsi vasitəsilə həmin əldə edilmiş faktlar əsasında həm nəzəri nəticələr, həm ümumi prinsiplər, bir sözlə, əməli fəaliyyət üçün vacib tövsiyələr müəyyən edilmişdir.

**Tədqiqatın nəticələri** – tədqiqat nəticəsində innovasiya fəaliyyətinin nəqliyyat sisteminin müasir səviyyədə təşkil olunması üçün müvafiq strategiya seçilməsi, innovativ istiqamətlər, idarəetmə və tənzimləmə sistemi təklif edilir.

**Tədqiqatın elmi yeniliyi və praktiki əhəmiyyəti.** Tədqiqat işinin əsas elmi yeniliyi aşağıdakılardan ibarətdir:

– nəqliyyat sisteminin xarakterik xüsusiyyətlərinin müəyyən edilməsi istiqamətində dövlət siyasətinin həyata keçirilməsinin zəruriliyi əhatəli tədqiq olunur;

– nəqliyyat sistemində idarəetmənin əsas xarakterik xüsusiyyətləri müəyyən olunur;

– nəqliyyat sisteminin idarə olunmasında sistemli yanaşmanın oynadığı rolun əhəmiyyəti təhlil olunur;

– nəqliyyat sisteminin davamlı inkişafına dövlət dəstəyinin əsas istiqamətləri müəyyənləşdirilərək əhatəli təhlil olunur;

**Açar sözlər:** nəqliyyat, nəqliyyat sistemi, investisiya, investisiya fəaliyyəti, innovasiya fəaliyyəti.

**AUDİT 2023, 2 (40), səh. 59-66.**
**AUDIT 2023, 2 (40), pp. 59-66.**
**АУДИТ 2023, 2 (40), стр. 59-66.**

## G İ R İ Ş

Maddi istehsal sferasına daxil olan əkinçilik, hasilat, həmçinin emal sənayesindən başqa, inkişafın həm sənətkarlıq, həm manufaktura, həm də maşın mərhələlərindən keçmiş bir sahəsi də nəqliyyat sənayesidir.

Nəqliyyat genişləndirilmiş təkrar istehsal prosesinə onu sürətləndirməklə, yaxud ləngitməklə, təsir edə bilir, həmçinin hazır məhsul kütləsini artırmaqla tədavül prosesində mühüm rol oynayır. Bu mənada nəqliyyatın maddi istehsala təsiri coğrafi mühitin, faydalı qazıntıların, əmək və digər resursların təsiri kimidir. Nəqliyyat istehsalının özü də mühüm xüsusiyyətlərə malikdir. Bu onun maddi-texniki bazasının strukturunda, istehsal fəaliyyətinin xarakterində idarəedilməsinin təşkilində təzahür edir.

Nəqliyyatda məşğul olan işçi heyətinə tələblər də digər insan fəaliyyəti sahələrində olduğundan fərqlidir. Burada heyətin psixoloji cəhətinə tələb ciddidir, belə ki, nəqliyyatçı peşəsi fəhlə, qulluqçu və nəqliyyat müəssisəsi rəhbərindən daha çevik təfəkkür, daha cəld reaksiya və geniş dünyagörüşü tələb edir. Öz növbəsində, nəqliyyatda işləmək insanın psixikasına təsirini göstərir. Bütün bunlar nəqliyyat istehsalının idarə edilməsinin təşkili prosesində nəzərə alınmalıdır.

Müasir dövrdə iqtisadiyyatın innovasiya inkişafının əsas fərqli xüsusiyyətlərini nəzərdən keçirək: istehsalın yüksək elmtutumluluğu; keyfiyyətin kəmiyyətə nəzərən prioritetliyi; nəqliyyat istehsalının struktur dəyişikliklərinin müntəzəmlik təbiəti və s.

Dünya təcrübəsi göstərir ki, innovasiya prosesi yalnız texniki sahə ilə məhdudlaşa bilməz. Müxtəlif növlərdən ibarət olan nəqliyyat sahəsinin bütövlükdə mürəkkəb sistem təşkil etməsi, eləcə də hər nəqliyyat növündə fəaliyyətin çoxşaxəliliyi burada innovasiya fəaliyyətinin də geniş texniki, texnoloji, təşkilati və sosial yeniliklər kompleksini əhatə etməsini şərtləndirir.

Nəqliyyatda innovasiya fəaliyyəti əsasən bu sahənin texniki inkişaf səviyyəsini, işin keyfiyyətini və əmək məhsuldarlığını müəyyən edən istiqamətləri əhatə etməlidir. Nəqliyyatın innovasiya inkişafı məsələlərinin həlli sərnişinlərin və yüklərin daşınmasına olan tələbatın daha dolğun və səmərəli ödənilməsinə yönəlməlidir. Nəticədə sahədə əmək məhsuldarlığının 30-40% qaldırılması təmin olunmalıdır. (1)

Nəqliyyatda innovasiya fəaliyyətinin konkret istiqamətləri sərnişin və yük daşımalarının mütərəqqi texnologiyalara keçirilməsi, nəqliyyat kompleksinin bütün həlqələrinin və ilk növbədə, müştəri xidmətlərinin, eləcə də idarəetmənin avtomatlaşdırılması, elektronlaşdırılması, informasiyalaşdırılmasıdır.

Nəqliyyatın bütün istismar fəaliyyətinin idarə olunması prosesinin tam avtomatlaşdırılması təmin olunmalıdır. İlk növbədə, əməliyyatların həyata keçirilməsində əl əməyinin ləğv edilməsi, avtomatlaşdırmanın təmin edilməsi vacibdir, belə ki, aşağı səviyyəli əmək məhsuldarlığı mənfəətin kəmiyyətini aşağı salır, bu da öz növbəsində bazar iqtisadiyyatı şəraitində nəqliyyat xidmətlərinin rəqabətədavamlılığının səviyyəsini endirir. Nəqliyyatda avtomatlaş-

AUDİT 2023, 2 (40), səh. 59-66.
AUDIT 2023, 2 (40), pp. 59-66.
АУДИТ 2023, 2 (40), стр. 59-66.

dırmanın daha yüksək səviyyəsi kompüterləşdirmə ilə bağlıdır ki, bu da nəqliyyatın ayrı-ayrı məsələlərinin – planlaşdırma, uçot, maddi-texniki təminat və digər məsələlərin həllinin bütün ölkədə nəqliyyat proseslərinin kompleks idarə olunmasını təmin edər. İnformasiyalaşdırma isə nəqliyyat kompleksinin idarə edilməsinin təşkilati strukturunun təkmilləşdirilməsi ilə bağlıdır.

Bütün sadalanan istiqamətlərdə innovasiya fəaliyyətinin əsas məqsədi nəqliyyat xidmətinin səviyyəsinin artırılmasıdır. Bu isə yeni xidmət texnologiyalarının tətbiqini tələb edir. Bundan başqa, nəqliyyatın işində bir sıra digər problemlər də mövcuddur. Məsələn, bu sahədə investisiya resurslarının səfərbərliyə alınması mexanizmlərinin dövlət maliyyəsindən asılılığının yüksək səviyyədə olması əsas fondların və ilk növbədə, nəqliyyat vasitələrinin yenisi ilə əvəzlənməsini ləngidir, ətraf mühit və insan səhhətinə neqativ təsirləri yüksəldir və beləliklə, cəmiyyətin keyfiyyətli, sürətli və təhlükəsiz nəqliyyat xidmətlərinə olan tələbatını tam olaraq qarşılanmasına imkan vermir.

Ümumiyyətlə, investisiyalar iqtisadiyyatda struktur dəyişikliklərin həyata keçirilməsində və bazar təssərüfat formalarına adekvat olan nisbətlərin formalaşdırılmasında əsas rol oynayan geniş təkrar istehsalın vacib iqtisadi kateqoriyasıdır. Milli iqtisadiyyatın liberallaşması və sahibkarləğın inkişafı, dünya iqtisadiyyatına inteqrasiyaya səylər, xarici investorlar üçün açıqlıq investisiya fəaliyyətinin aktivləşməsinə səbəb olmuşdur. Bu və ya digər iqtisadiyyata (ölkəyə) qoyulan investisiyaların həcmi və ümumən investorun investisiya qoyuluşu zamanı, ilk növbədə, iqtisadiyyatın investisiya mühiti qiymətləndirilir.

İnvestisiya mühitini qiymətləndirərkən adətən ona təsir edən amillər və mümkün risklər qiymətləndirilir.

Əsas amillərə aşağıdakılar aiddir:

- əmək resurslarının keyfiyyəti;
- siyasi sabitlik və siyasi vəziyyətin qabaqcadan aydın edilməsi imkanı;
- infrastruktur obyektlərinin inkişaf və əldə edilmə səviyyəsi;
- dövlət idarəetməsinin keyfiyyəti, mərkəzi və yerli hökumətin siyasəti;
- qanunvericilik, iqtisadi həyatın tənzimlənməsinin keyfiyyəti və dolğunluğu;
- mülkiyyət hüquqlarının qorunması;
- vergi sisteminin keyfiyyəti və vergi yükünün səviyyəsi;
- qanun qaydalarına və qanuniliyə əməl etmə səviyyəsi, cinayətkarlıq və korrupsiya;

Azərbaycan bir sıra xarici ölkə ilə xarici kapital qoyuluşlarının (investisiyaların) qarşılıqlı müdafiəsi və həvəsləndirilməsi haqqında sazişlər bağlamış və təsdiq etdirmişdir. İnvestisiyaların qarşılıqlı müdafiəsi və həvəsləndirilməsi haqqında sazişlər, bir qayda olaraq, dövlətlərin onların ərazilərində başqa ölkələrin investorlarının fəaliyyəti ilə bağlı olan öhdəlikləri cəmləşdirir. Razılığa gələn tərəflər investorların kapital qoyuluşları və onlarla bağlı olan fəaliyyət üçün əlverişli rejimin yaradılmasına, xarici mülkiyyətin lazımi müdafiəsinə, investorlara özlərinin gəlirlərinin maneəsiz ölkələrinə göndərilməsinə dair öhdəlik götürürlər.

“Rəqabət haqqında” Məcəllənin qəbul edilməsi inhisarçılıq sahəsində vəziyyətin yaxşılaşdırılmasına imkan verəcək. Hal-hazırda ölkə bazarının 35%-ini tutan struktur inhisarçı

AUDİT 2023, 2 (40), səh. 59-66.
AUDIT 2023, 2 (40), pp. 59-66.
АУДИТ 2023, 2 (40), стр. 59-66.

sayılır. Mövcud dövlət reyestrinə əsasən inhisarçı subyektlərin sayı 195-dir, onlardan 98 təbii monopoliyalar, 97-i isə təsərrüfat subyektləridir (2) .

İnvestisiyaların tələb olunan həcm və keyfiyyətinin təmin edilməsi məqsədilə əlverişli investisiya mühitinin yaxşılaşdırılması qarşıda duran əsas vəzifələrdəndir. Bu məqsədlə:

- mülkiyyət formasından asılı olmayaraq, bütün investorlar üçün daha əlverişli rəqabət mühitinin yaradılması;
- xüsusi mülkiyyətin qorunması və korporativ idarəetmənin təkmilləşdirilməsi;
- investisiya fəaliyyətinin hüquqi-normativ bazasının daha da təkmilləşdirilməsi;
- investisiya obyektlərinin seçilməsi və təhlili məqsədi ilə müəssisələr haqqında investorların məlumatlandırılması sisteminin yaxşılaşdırılması;
- Azərbaycanın xarici investisiyalar üçün cəlbedici ölkə imicinin formalaşdırılması üzrə tədbirlərin həyata keçirilməsi;
- əmanətlərin investisiyalara səmərəli transformasiyasını təmin edən müasir institusional infrastrukturun inkişaf prosesinə yardımın artırılması.

Azərbaycanın uzunmüddətli dövrdə dövlət investisiya siyasətinin əsas istiqamətlərini aşağıdakı prioritetlər təşkil etməlidir:

- investisiya layihələrinin orta və uzunmüddətli dövlət proqramları ilə müəyyən olunmuş sosial-iqtisadi inkişaf məqsədlərinə və prioritetlərinə uyğunlaşdırılması;
- regional investisiya siyasətinin müasir inkişaf tendensiyalarına uyğun olaraq prioritetləşdirilməsi;
- investisiyaların qeyri-neft sektorlarına və regionların inkişafına yönəldilməsi;
- dövlət investisiyalarının elmtutumlu layihələrinə yönəldilməsi;
- dövlətin müdafiə qabiliyyətinin artırılması.

Qeyd olunmalıdır ki, dövlət məqsədyönlü olaraq ölkədə investisiya mühitinin yaxşılaşdırılması üzrə ardıcıl siyasət həyata keçirir. Öz növbəsində bu investisiya aktivliyinin artmasına səbəb olur. İnvestisiya aktivliyinin mütərəqqi tendensiyası həmçinin milli iqtisadiyyatın real artımı ilə izah olunur.

İnvestisiya aktivliyi ölkənin nəqliyyat sektorundan da yan keçməmişdir. Nəqliyyat sektorunun əsas investorları kimi dövlət və həmçinin özəl investorlar çıxış edir. Dövlət büdcə vəsaitləri hesabına müasir nəqliyyat infrastrukturu (yollar, körpülər, nəqliyyat yol qovşaqları və s.) yaradır və sərnişin nəqliyyatını inkişaf etdirir (metropoliten və s.). Özəl investorlar nəqliyyat sahəsinin maddi-texniki bazasını inkişaf etdirirlər.

Cədvəl 1.1-də ölkənin nəqliyyat sektoruna yönəldilmiş investisiyaları xarakterizə edən göstəricilər verilmişdir. 2015-ci ildə ümumən ölkə üzrə onların həcmi 2,2 mlrd. manatdan artıq olmuşdur.

AUDİT 2023, 2 (40), səh. 59-66.
AUDIT 2023, 2 (40), pp. 59-66.
АУДИТ 2023, 2 (40), стр. 59-66.

*Cədvəl 1.1*

**Nəqliyyata yönəldilmiş investisiyalar, mln. manat**

| | 2000 | 2005 | 2010 | 2015 |
|---|---|---|---|---|
| Cəmi | 44,0 | 515,5 | 2434,8 | 2195,3 |
| Dəmir yolu nəqliyyatı | 3,9 | 22,5 | 3,4 | 1,6 |
| Digər quru yol nəqliyyatı | 2,6 | 17,2 | 162,9 | 237,6 |
| Boru kəməri | 2,1 | 225,9 | 344,8 | 313,8 |
| Su nəqliyyatı | 1,0 | 30,7 | 13,2 | 112,7 |
| Hava nəqliyyatı | 9,0 | 118,1 | 214, 1 | 397,2 |
| Anbar təsərrüfatı və yardımçı nəqliyyat fəaliyyəti | 25,4 | 101,1 | 1696,4 | 1132,4 |

***Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.***

Yüksək inkişaf etmiş nəqliyyat infrastrukturuna malik olan ölkələrdə (ABŞ, Kanada, Qərbi Avropa ölkələri) nəqliyyat kompleksinin inkişafına yönəldilən investisiyalar ÜDM təqribən 3%-i təşkil edir, Çində 9%, Rusiyada 1,4%. *(136)* Azərbaycanda 2015-ci ildə bu göstərici ÜDM-un 4%-i təşkil etmişdir. BVF-un ekspertlərinin qiymətləndirmələtrinə əsasən, ÜMD-n 2%-i ölkənin mövcud nəqliyyat infrastruktur obyektlərinin yalnız saxlanması üçün kifayətdir. (10)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin açılışında (29 dekabr 2011) qeyd etmişdir: «Ölkəmizin nəqliyyat sektoru çox uğurla inkişaf edir. Hər bir yerdə tikinti gedir. Magistral, şəhərlərarası yollar, kənd yolları tikilir. Nəqliyyat sektoruna qoyulan investisiyalar özünü doğruldacaqdır. Bu, elə investisiyadır ki, dərhal gəlir gətirmir, bu, müəssisə, zavod deyildir. Ancaq bu sahəyə qoyulan vəsait bir neçə ildən sonra öz bəhrəsini verəcəkdir. Harada ki, yol çəkilir, orada yeni infrastruktur yaradılır, canlanma baş verir, investisiyalar gəlir».

Dünya Bankının verdiyi məlumatlar da kifayət qədər maraqlıdır. Bu yaxınlarda keçirilmiş tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Yamaykada yol tikintisi sektoruna investisiya edilmiş hər milyon ABŞ dolları 81 iş yerinin yaradılmasına imkan vermiş və 1,5 mln. ABŞ dolları həcmində iqtisadi artım təmin etmişdir. (9)

Ölkənin nəqliyyat sektorunda investisiya fəaliyyətinin aktivləşdirilməsinin əsas istiqamətləri aşağıdakılardır:

- azad iqtisadi zonaların və texnoparkların inkişaf etdirilməsinə məqsədli investorların cəlb edilməsi üçün onların böyük nəqliyyat qovşaqlarında yaradılması;

**AUDİT 2023, 2 (40), səh. 59-66.**
**AUDIT 2023, 2 (40), pp. 59-66.**
**АУДИТ 2023, 2 (40), стр. 59-66.**

- həyata keçirilməsi uzunmüddətli olan və bu səbəbdən də kommersiya investisiyaları üçün cəlbedici olmayan layihələrinə dövlət zəmanətinin təmin edilməsi. Dövlət zəmanəti burada maliyyə risklərinin təmin edilməsindən daha çox investorları və layihənin digər iştirakçılarını onun ictimai vacibliyində inandırmadan və onun uğurlu həyata keçirilməsində dövlətin maraqlı olmasından ibarətdir;

- nəqliyyat müəssisələrinin investisiya aktivliyinin stimullaşdırılması. Bunun üçün əlverişli şərait yaranmışdır: iqtisadi artım nəqliyyat xidmətlərinə tələbatı və nəqliyyat layihələrinin cəlbediciliyini obyektiv olaraq artırır.

Ümumiyyətlə, ölkədə investisiya mühitinin daha da yaxşılaşdırılmasına yönəlmiş məqsədyönlü tədbirlər davam etdirilməlidir. Söhbət hakimiyyətin birdəfəlik aktlarından yox, həm dövlətin, həm də müəssisə və ictmai institutların zəhmət tələb edən gündəlik işindən gedir. Yalnız investisiya mühitinin yaxşılaşdırılması Azərbaycanın nəqliyyat sektoruna həm daxili, həm də xarici investisiyaları ardıcıl surətdə cəlb etmək imkanını verəcək.

## YEKUN

Azərbaycan Respublikasının nəqliyyat sahəsində mövcud olan problemlərin tezliklə aradan qaldırılması və onun beynəlxalq nəqliyyat sisteminə inteqrasiyası nəqliyyat infrastrukturlarının yenidən qurulmasını, Azərbaycanın tranzit potensialının artırılmasını, daşıyıcıların beynəlxalq nəqliyyat xidmətləri bazarında rəqabət qabiliyyətinin yüksəldilməsini və nəqliyyat xidmətlərinin ixracının maksimum həddə çatdırılmasını tələb edir.

### İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. Qədirov H.Ə. İnnovasiya Menecmenti. “Azərbaycan Hava Yolları” QSC-nin Milli Aviasiya Akademiyası, 2014
2. Tağıyev T.T., Mirzəyev F.M. Azərbaycanın nəqliyyat sektoruna investisiyaların cəlb edilməsi prosesləri.; AMEA, “Elmi əsərlər” №3, Bakı, 2014.
3. Sach J. The Debt Overhang Problem of Develoring Countries. Parer prezented at the conference in memorial to Carlos Diaz-Alejandro. Helsinki, August; 1986.
4. Allahverdiyev H, Məmmədov Z. İnvestisiya proseslərinin tənzimlənməsi. AzDİU nəşrləri, Bakı; 2003.
5. Cümşüdov S.Q. Nəqliyyatda biznes və menecment. Nəqliyyatin iqtisadiyyatı və idarə edilməsi ixtisası üzrə dərs vəsaiti / Azərbaycan Texniki Universiteti.- Bakı. Çaşıoğlu, 1999.
6. Əlirzaev Ə. İqtisadi və sosial idarəetmə: bazar iqtisadiyyatı, metodoloji prinsiplər, qanunauyğunluqlar. Bakı, «Diplomat», 1997.
7. Həsənov R. İqtisadi siyasət. Metodoloqiya və praktika. ADİU; Bakı, 2009.
8. Azərbaycanın nəqliyyati. Azərbaycan Dövlət Statistika Komitəsi; «Səda» nəş-tı, Bakı, 2015.
9. http://www.nba.az
10. http://mot.gov.az/az/content/372

**AUDİT 2023, 2 (40), səh. 59-66.**
**AUDIT 2023, 2 (40), pp. 59-66.**
**АУДИТ 2023, 2 (40), стр. 59-66.**

*Mehemmed Ali Suleymanov,*
*Ph.D. Student,*
*National Aviation Academy,*
*E-mail: mehemmed_suleymanov05@mail.ru*
*© M.A. Suleymanov, 2023*

## MAIN DIRECTIONS OF THE INVESTMENT DEVELOPMENT OF THE TRANSPORTATION SYSTEM OF AZERBAIJAN

**A B S T R A C T**

**The purpose of the research -** is the determination of the directions of innovative and investment development of Azerbaijan's transport system and its development problems.

**The methodology of the research -** Analysis and synthesis, as well as induction and deduction methods were used in the preparation of the work. Thus, through the method of analysis, the topic was taken as a whole and then divided into chapters and analyzed separately. Later, by synthesis method, these chapters were concentrated in the economic system. Through the method of induction, economic facts about the research work were obtained, systematized and investigated. Then, through the use of the deduction method, both theoretical conclusions and general principles, in short, important recommendations for practical activity, were determined based on those obtained facts.

**The results of the research -** as a result of the research, selection of appropriate strategy, innovative directions, management and regulation system are proposed for organizing the transport system at a modern level of innovation activity.

**The practical importance and scientific novelty of the research -** the main scientific innovation of the research work consists of the following:

– The necessity of implementing the state policy in the direction of determining the characteristic features of the transport system is comprehensively studied;

– The main characteristics of management in the transport system are determined;

– The importance of the role played by the systematic approach in the management of the transport system is analyzed;

– The main directions of state support for the sustainable development of the transport system are identified and comprehensively analyzed.

**Keywords:** transport, transportation system, investment, investment activity, innovation activity.

**AUDİT 2023, 2 (40), səh. 59-66.**
**AUDIT 2023, 2 (40), pp. 59-66.**
**АУДИТ 2023, 2 (40), стр. 59-66.**

*Сулейманов Магомед Али оглы,*
*докторант,*
*Национальная Академия Авиации,*
*E-mail: mehemmed_suleymanov05@mail.ru*
*© Сулейманов М. А., 2023*

# ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ИНВЕСТИЦИОННОГО РАЗВИТИЯ ТРАНСПОРТНОЙ СИСТЕМЫ АЗЕРБАЙДЖАНА

## Р Е З Ю М Е

**Цель исследования -** это определение направлений инновационного и инвестиционного развития транспортной системы Азербайджана и задач ее развития.

**Методология исследования** – при подготовке работы использовались анализ и синтез, а также методы индукции и дедукции. Таким образом, методом анализа тема была взята в целом, а затем разделена на главы и проанализирована отдельно. Позднее методом синтеза эти главы были сконцентрированы с точки зрения экономической системы. Методом индукции были получены, систематизированы и исследованы экономические факты об исследовательской работе. Затем методом дедукции на основе полученных фактов определялись как теоретические выводы, так и общие принципы, словом, важные рекомендации для практической деятельности.

**Результаты исследования** – в результате исследования предложен выбор соответствующей стратегии, инновационных направлений, системы управления и регулирования для организации транспортной системы инновационной деятельности на современном уровне.

**Практическая значимость и научная новизна исследования –** основная научная новизна научно-исследовательской работы состоит в следующем:

– всесторонне изучается необходимость реализации государственной политики в направлении определения особенностей транспортной системы;

– определены основные характеристики управления в транспортной системе;

– анализируется важность роли системного подхода в управлении транспортной системой;

– определены и всесторонне проанализированы основные направления государственной поддержки устойчивого развития транспортной системы;

**Ключевые слова:** транспорт, транспортная система, инвестиции, инвестиционная деятельность, инновационная деятельность.

*Məqalə redaksiyaya daxil olmuşdur: 06.03.2023*
*Təkrar işləməyə göndərilmişdir: 13.03.2023*
*Çapa qəbul olunmuşdur: 17.03.2023*

*The date of the admission of the article to the editorial office: 06.03.2023*
*Send for reprocessing: 13.03.2023*
*Accepted for publication: 17.03.2023*

*Дата поступления статьи в редакцию: 06.03.2023*
*Отправлено на повторную обработку: 13.03.2023*
*Принято к печати: 17.03.2023*